***Gərək bu günləri görəydin...***

Allahın saatından
Əriyib damır zaman.
Zamanın yağışından
Dirçəlir, cana gəlir
Hava, Yer, Göy, Asiman.
Zaman akvariumunda
Balıq kimi üzürük,
Şüurun qəlsəməsindən
Yüz illəri süzürük.
Anları incilərə,
Dürlərə döndəririk,
Tarix boyu düzürük,
Zamana göndəririk.
Hər min ilin sonunda,
Min ilin əvvəlində,
Kainatın əlində
Dünya sınaqdan keçir.
Min illik böyük dövran
Süzülüb haqdan keçir.
Baxır ulu Yaradan
Beş-on haqqın naminə
Min-min günahdan keçir.
Yenə bizi bağışlar,
Həyat yenidən başlar,
Saat yenidən işlər...
Min il Allah yanında
Bir zərrəcik zamandı.
Kainatın  ömründə
Göz qırpımı tək andı...
Bu bir anın içində
Biz didişə-didişə
"Göz-gözəyik", "dişdişə".
Biz savaşa-savaşa
Yüz illər, min illəri
Yaşadıq, vurduq başa.
Aləmin düzəni var
Bağından quş uçurmur.
Allah zaman zərrəsin
Nəzərindən qaçırmır.
Hər min ilin sonunda
Allahımız əzəldən
Bu millətin səhvini,
Qamətini düzəldən
Bir xilaskar göndərir.
Bizə verdi Heydəri,
Heydər — böyük öndəri.
Onun böyük ağlıyla
Ölümsüzlük yoluna

Ölkəmizi döndərdi.
Min-min böyük insanın
Ömrü hədər olubdu.
Hər kəsin böyüklüyü
Ağlı qədər olubdu.
Allahım bu milləti
Xilas eyləmək üçün,
Hər il, hər ay, lap hər gün
Min-min insan göndərib.
Çox güclü, çox ağıllı
Min qəhrəman göndərib.
Hər gələnin yolunda
Min qəza, qədər olub.
Min-min gələn insandan
Birisi Heydər olub.
Allah hamını yaradır,
Ondan sonra hər kəsi
Fəhmi, ağlı qoruyur.
Ağıl — həyat çeşməsi,
Ağlı azlar quruyur.
Heydərin də əlindən
Öz ağlı tutdu, getdi.
Ağlı Heydər qorudu,
Bizə öndər böyütdü.
Allahdan aşağıda,
Allahın işığıdı.
Bu işıq hər canlını
Yaşadan öz ağlıdı.
Hər insan öz ağlıyla
Allahına bağlıdı.
Allahına, ağlına
İnananlar haqlıdı...
O zaman Naxçıvanda
Doğulmaq da bir dərddi.
Dərd içində yaşamaq
Orda köhnə adətdi.
Heydər doğulan evdə
Bir çətən külfət vardı.
Var-dövlət olmasa da
Mehriban ülfət vardı.
Ağlını Allah vermişdi,
Adını Əlirza kişi.
O adın içindəydi
Gələcəyi, keçmişi.
Qarşıda illər var idi,
Keçilməz yollar var idi,
Bal kimi dillər var idi.
Yolundan azdırmaq üçün
Deyirdilər bu bir sirdi,
Daş, divar qulaq asırdı,

Görən-görməyən yazırdı.
Aranı qızdırmaq üçün.
Yanında məliyərdilər,
Hər işin əliyərdilər,
Hər sözün bəliyərdilər
Pis yönə yozdurmaq üçün.
Xaçpərəstin müsəlmanı,
Çox baxdılar yanı-yanı,
Bunun əyri yanı hanı?
Adını pozdurmaq üçün
Bütün yamanlara qarşı
Qəlbində açdı savaşı.
Allah verən ağlı-başı
Salamat gəzdirmək üçün.
Hər işindən güc aldı,
Hər yolundan güc aldı.
Öz gücünə ucaldı,
Siyasi büroyacan!
Onun gizli həmdəmi,
Həm sevinci, həm qəmi
Qəlbində anasıydı
Hər ahına dedi can!
Qəlbində gəzdirdiyi
Anası Azərbaycan.
Keçdi savaşlar üstən,
Adladı başlar üstən.
Kommunist imperiyasının
Olimpinə ucaldı.
Dostları sevindirdi,
Düşmənlərdən öc aldı.
Çox keçmədi qəlbinə,
Çökdü acı qəm-kədər.
"Bu qədər ucalıqda
Alçaqlıq var bu qədər".
İmperiyanın başında
Bir başsızlıq gördü o,
Allahsızlıq gördü o,
Yoldaşsızlıq gördü o.
Bu siyasi büroda,
Hamı birov-birovda...
Ac canavarlar kimi
Göz-gözə yatır, durur,
Bir an arxa çevirsən,
Hamı arxadan vurur.
Burda Heydər müsəlman,
Üstəlik hələ türkdü.
Türk olmağı ruslara
Bir göz dağıdı, görkdü.
Hamsı məəttəl qalıb —
Bacarıqdı, ya baxtdı?

Bu qədər əldən çıxıb
Olimpə necə qalxdı?

Tutun geriyə dartın!
Şər yoxdu, güllə atın!
Aşına zəhər qatın!
Yolda, pusquda yatın!
Bu necə ola bilər?
Türk Olimpə gəlincə
Yüz dəfə ölə bilər!
Heydər bu qısqanclığı,
Bu məkri duyurdu.
Özünü hər tərəfdən,
Hər yandan qoruyurdu.
"Heç vaxt özündən yaxşı
Arxa, kömək arama.
Hardasan, ay Zərifə,
Gərək birgə baxaydıq
Bu yaşanan drama.
Bunların hər birindən
Gəlir ölüm qoxusu.
Oğlun, gəlinin, qızın,
Nəvələrin qorxusu.
Bu qanlı partiyadan
Ölümsüz, qansız dönmək,
Burdan itkisiz enmək...
Bura qalxmaq çətindi,
Burdan enmək mümkürısüz...
Mümkünsüz işi görmək
Elə mənim işimdi.
ölüm üstünə getmək,
Əziz adamlarımı
Bəladan xilas etmək
Ən ilkin vərdişimdi".
Yenə də zəfər çaldı,
Əzizlərin qorudu,
Özü ayaqda qaldı.
Bir səhər yorğun, üzgün
Naxçıvana qayıtdı
Yenidən doğulmaq üçün.
Bu qədim Naxçıvanda
Ağsaqqal da, cavan da
öndərin şöhrətini
Elə yaraşıq sayır.
Hər kəs onun şəklini
Evində işıq sayır.
Ziyarətə gəlirlər
Axın-axın insanlar,
Uzaq, yaxm insanlar.
Bir-birindən küsənlər
E1ə burda barışdı,

Dərdlərini danışdı.
İşıqsız Naxçıvanın
Çıraqları alışdı.
Azadlığın üç rəngli
Bayrağı qalxdı burda.
Böyük Azərbaycanın
Vaxtı və baxtı burda.
Öndərin ürəyində
Azərbaycan ağlayır,
Bölgələr qan ağlayır.
"Tökülür qardaş qanı,
Yurdumda tətik çalır
Yad ellərin pulları.
Pusqudan üzə çıxıb
Girəvə yoxsulları.
Dişlərilə didirlər
Anam Azərbaycanı".
Ölkənin hər yanından
Millət öndər çağırdı.
Xatırlayın o çağı;
Milli Məclisim oldu
Bir məzhəkə ocağı.
Milli oyunbazların
Olmuşdu oyuncağı.

Hər kəs "siyasətini"
Mataq kimi satırdı.
Bunlar öndər yanında,
Siyasət meydanında
Guya at oynadırdı.
Özləri də bilmirdi
Atı axsaq qatırdı.
Bu yazıqlarla öndər
Düzüb şahmat oynayır,
Bunlar da zər atırdı.
İllər sonra deyəcək
Bir boşboğaz heyvərə:
— Mən məsləhət vermişəm
O zamanlar Heydərə.
— Beləsinə nə deyim,
Vallah çox gülməlidi...
Bu da ağıllıdırsa
Müsyö, bəs kim dəlidi?..

***

Öndər imdada çatdı,
Bu kiçik məxluqlara.
Nifrəti yana atdı
Öndər gəldi ölkədə

Böyük atəşkəs oldu,
Bu birinci dərs oldu.
Qan verən yaraları
Bircə-bircə bağladı.
Sabitliyi qorudu,
Möhkəmlətdi, saxladı.
Əsrin müqaviləsi,
Bakı, Tbilisi, Ceyhan.
Sağaldı Azərbaycan,
Ucaldı Azərbaycan.
Biz sənə can borcluyuq,
Vətən adlı ulu can.
Hər yanda əməlin var,
Hər yanda heykəlin var.
Sabahkı günümüzdə
Yenə sənin əlin var.
Azərbaycan yüksəlir —
Dünyanın hər yerindən
Zəfər sorağı gəlir.
Ölkəmizin dünyada
Öz sözü, öz səsi var.
Çox sevdiyin Bakıda
Körpülərin, yolların
Üç-dörd mərtəbəsi var.
Bircə sən yoxsan, öndər,
Gərək bunu görəydin.
Ruhunu sevindirib,
Üzünü güldürəydin.
Sən mənə verən ömrü
Gəzirəm addım-addım.
Mən sənə çox borcluyam,
Borcu qaytarammadım.
İndi yazan da çoxdu,
Aşıq, ozan da çoxdu.
Nə yazsam deyəcəklər:
Bunları biz demişik,
Səndən yaxşı demişik,
Səndən də tez demişik.
Deyən dillər var olsun,
Yazan əllər var olsun.
Sizin bu eşqinizə
Odlu alqışlar olsun.
Mən də ulu öndərə
Bu şeri pıçıldadım.

Xatirəsi önündə

Can borclusudur adım.

*Epiloq əvəzi*

***Böyük öndər xəstə olanda İlham Əliyevin dilindən "Ata" adlı şeir yazdım.***

***Mərhum dostum Ramiz Mirzəyevin təşəbbüsü ilə xalq artisti Niyaməddin Musayev ona musiqi yazdı. Özü də ifa etdi, klip də çəkdirdi. Mən bu yeni yazını qurtaranda "Ata" şerini bir də nəzərdən keçirdim. Gördüm yeni yazım üçün on il bundan əvvəl yazdığım şeir ən yaxşı sonluqdur.***

***Epiloq kimi bu şeri verirəm. Zamanın tələb etdiyi cüzi dəyişikliklə.***

***Sən gedən yollara qurban kəsərdim,***
***Şərəfim, şöhrətim, vüqarım ata.***
***Nanə yarpağı tək tir-tir əsərdim,***
***Qoy xəzan görməsin baharm, ata.***

***Qızım, balam dedi evdə gəlinə,***
***Övladı yaxşıya, yamana bölməz.***
***Atam kürəyimə vurub əlini,***
***Heç yerdə, heç zaman qəddim əyilməz.***

***Ata, gözlərinin nuruna qurban,***
***Öpdüm, gözüm üstə qoydum əlini.***
***Sənin ürəyindir sinəmdə vuran,***
***Kövrəltmə könlümün sarı telini.***

***Ata başımızm ucalığıdı,***
***Oğul atasının cavanlığıdı,***
***Ata övladının qocalığıdı...***
***Ata, hardasan, gəl bu gün, ata,***
***Gərək bu günləri görəydin, ata.***

***Fikrət Qoca***

***Ədəbiyyat qəzet– 2008. – 4 aprel. – S.1-2.***